***Ələkbər Sadiq***

## *Can Xocalı, can ey ana torpağım*

Azərbaycan, sən ey doğma diyarım.
Ana yurdum, sən ey ata ocağım,
Neyləmişdim, axıdıldı al qanım.
Anam, bacım qara geyib bağladı
Can Xocalı, səni deyib ağladı.

Bir namərdin gülləsinə tuş oldum.
Sinəmdən yox, kürəyimdən vuruldum.
Qana düşdüm, öz qanımda boğuldum.
Yandı bağrım, ərşə qalxdı harayım,
Can Xocalı, nədəndi bu soyqırım.

Ana Vətən al qanına bələndi,
Günah nədir körpələr güllələndi,
Söylə qardaş, kimə deyim bu dərdi,
Şaxta vurdu, dondu qızlar, gəlinlər,
Can Xocalı, şəhid oldu igidlər.

Ürəyi daş, gözləri buz olanlar,
Körpələri diri-diri soyanlar,
Cavab verin, ey vicdanı susanlar.
Deyin görək, axı nədir günahım,
Can Xocalı, qara gəldi sabahım.

Türk oğluyam, mən bu qandan keçmərəm.
And içirəm, öz andımdan dönmərəm!
Xocalını yağılara vermərəm.
Mən qoymaram, yerdə qalmaz bu qanım,
Can Xocalı, can ey ana torpağım.

***Sadiq Ə. Can Xocalı, can ey ana torpağım : şeir // Savalan. – 2010. – 2 mart. – S.3.***